RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Heydər Əliyev İli 2023

**2023-cü il Azərbaycanın ictimai-siyasi həyatında çoxsaylı möhtəşəm hadisələrlə əlamətdar olacaq. Belə ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 105-ci, Ulu Öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdışının 30-cu ildönümü, cənab İlham Əliyevin respublikamıza rəhbərliyinin 20-ci ili tamam olur.**



# Tarixin qüdrət rəmzi

Bu ilin əlamətdar hadisələrindən ən başlıcası isə müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyidir. Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması da bu baxımdan xalqımız tərəfindən dərin razılıqla qarşılandı.

## İnkişaf və yüksəliş epoxası

Tarixdə şəxsiyyətlərin, liderlərin, sərkərdələrin rolu barədə çox deyilib, çox yazılıb və bu barədə fikirləri ümumiləşdirəndə gələnən əsas qənaətlərdən biri də o olur ki, dövlətlərin şərəf tarixi böyük şəxsiyyətlərin sayəsində formalaşır. Məhz belə insanların xalqı milli ideyalar və dəyərlər ətrafında səfərbər edə bilmələri, birləşdirmələri onların tarixlərinə qızıl hərflərlə həkk olunan dövlətçilik salnamələrini yaradır. Bəşər tarixinin bütün mərhələlərində olduğu kimi, XX əsrdə də müxtəlif xalqların taleyində liderlərin əvəzolunmaz xidmətləri olub və onların sırasında dayanan böyük şəxsiyyətlərdən biri də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevdir.

Heydər Əliyev elə bir şəxsiyyətdir ki, onun siyasi fəaliyyətini təhlil süzgəcindən keçirəndə heç bir mübaliğəyə varmadan müasir Azərbaycan tarixinin dünəni və bu günü haqqında ən xoş duyğularla, qürur hissi ilə bəhs edirik. Heydər Əliyev elə bir zirvədir ki, onun ucalığından keçdiyimiz inkişaf yolunun nə qədər möhtəşəm olduğu görünür. Heydər Əliyev elə bir möhtəşəm siyasi kursun müəllifidir ki, bu, Azərbaycanın etibarlı gələcəyini, xalqımızın aydın sabahını təmin edib.

Haqlı olaraq bu dövr tarixçilər və politoloqlar tərəfindən Heydər Əliyev epoxası da adlandırılır. Bu dövrün hər bir mərhələsində həyata keçirilən siyasət ən müxtəlif nümunələrlə Azərbaycana yüksəliş, inkişaf, müstəqillik, yüksək sosial rifah, qüdrətli dövlətçilik və Vətən müharibəsindəki qələbə kimi tarixi uğur bəxş edib.

## Vətənə layiqli xidmətin nümunəsi

Heydər Əliyevin Azərbaycana rəhbərliyi tariximizin iki müxtəlif dövrünü əhatə edir. Ulu Öndər ilk dəfə ölkəmizə rəhbər seçilənə qədər tamamilə fərqli bir sferada çalışmışdı, amma elə DTK rəhbərliyində də Heydər Əliyev sovet dövrünün sərt tələblərinə baxmayaraq, öz Vətəninə layiqli xidmətin nümunəsini ortaya qoymuş, xalqını qorumuşdu. O dövrün araşdırmaları da göstərir ki, istər Azərbaycan DTK sədrinin müavini, istərsə də sədri vəzifəsində çalışdığı vaxtlarda Heydər Əliyev hər hansı bir şəxsin milli düşüncəsinə görə təzyiqlərə məruz qalmasına qətiyyətlə imkan verməmiş, bu səpkidə meydana çıxan məsələləri məhz azərbaycanlıları qorumaqla yoluna qoymuşdur. İlk növbədə bu amil Heydər Əliyevin öz xalqına, milli dəyərlərinə nə qədər bağlı olan bir şəxsiyyət olduğunu göstərir.

Hələ DTK rəhbərliyində çalışarkən Heydər Əliyev respublikamızın iqtisadi və sosial problemlərinin, cəmiyyəti qayğılandıran məsələlərin də nədən ibarət olduğunu görürdü. Bu mənada 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyev nədən və haradan başlayacağını çox yaxşı bilirdi. Düzdür, tamamilə fərqli bir sferada çalışdığı üçün cəmiyyət Heydər Əliyevi bir o qədər də yaxından tanımırdı. Lakin ölkəyə rəhbərliyinin elə ilk günlərindən vətəndaşlar cəmiyyətdəki sosial-iqtisadi problemlərə qarşı qətiyyətlə mübarizə aparan, xoşagəlməz və neqativ hallara qarşı barışmaz olan, eyni zamanda yeni ruhlu bir liderin idarəçiliyinin şahidi olmağa başladılar.

Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyi 13 illik zaman kəsiyini əhatə edir. Amma bu dövrdə Azərbaycanın iqtisadi inkişafı, o cümlədən sosial və digər istiqamətlərdə qazanılan nəticələr bütövlükdə respublikamızın sovet ittifaqının tərkibində olduğu illər ərzində əldə olunan göstəriciləri əhəmiyyətli dərəcədə üstələyir. Məsələn, bu dövrdə yalnız sənaye istehsalı 2,7 dəfə artmışdı ki, bu da Azərbaycanın əvvəlki 30 il ərzində istehsal olunan sənaye məhsullarının həcmindən nə az, nə çox düz 2 dəfə çox idi. Başqa bir iqtisadi fakta diqqət yetirək. 13 il ərzində respublikamızda iqtisadiyyata əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox sərmayə yatırılmış, 15 yeni iri maşınqayırma müəssisəsi istifadəyə verilmiş, 12 müəssisədə istehsal gücü əvvəlki illərlə müqayisədə 6 dəfə artmışdı. Belə misalları çox göstərmək olar və bütün bunların nəticəsi kimi Heydər Əliyev böyük uzaqgörənliklə rəhbərliyinin birinci dövründə Azərbaycanı keçmiş ittifaqın qabaqcıl respublikaları sırasına çıxarmışdı. Heydər Əliyevin sayəsində Azərbaycan sənaye respublikası kimi tanınmağa başladı və təsadüfi deyil ki, respublikamızda istehsal edilən 350 adda məhsul 65 ölkəyə ixrac edilmişdi.

Bəzən qeyd edilir ki, Heydər Əliyev Azərbaycana rəhbər seçilənə qədər Azərbaycan əsasən aqrar respublika kimi tanınırdı. Amma faktlara və 13 ildə əldə olunan nəticələrə nəzər salanda görürük ki, əslində, 1969-cu ilə qədər elə bu sahədə də ciddi gerilik mövcud olub. Artıq 1982-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının 60-cı illərlə müqayisədə 6 dəfəyə qədər artması, konkret məhsullar üzrə götürsək, pambığın 335,6 min tondan 831,2 min tona, üzümün 272 min tondan 1481 min tona, tərəvəz istehsalının 410 min tondan 850 min tona çatdırılması məhz Heydər Əliyevin müdrik idarəçiliyinin nəticəsi kimi tariximizdə daim xatırlanacaq.

## Xalqına və milli dəyərlərinə bağlı şəxsiyyət

Təbii ki, iqtisadi sferada əldə olunan uğurları bir yazıda tam əhatə etmək mümkün deyil, lakin Ulu Öndər elə bir iqtisadi təməl formalaşdırdı ki, həmin baza üzərində müstəqillik illərində də dövlətimiz böyük uğurlar qazandı. Heydər Əliyevin böyük uzaqgörənliyi ilə təməli 1978-ci ildə qoyulan Bakı Dərin Özüllər Zavodu müstəqillik illərində də respublikamızın yeni neft strategiyasının uğurla həyata keçirilməsinə layiqincə xidmət etdi və bu gün də xidmət edir. Bu kimi faktorlar Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyinin təcəssümüdür.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də onda idi ki, Ulu Öndər sovet ideologiyasının hakim olduğu bir sərt dövrdə milli düşüncəni qorumuş, milli-mənəvi dəyərlərimizin yaşaması üçün əlindən gələni etmişdi. Hələ DTK rəhbərliyində çalışdığı illərdə milli düşüncəni qoruyan Ulu Öndər ölkəmizə rəhbərliyi illərində də milli dəyərlərimizi təbliğ edən, tariximizə işıq salan ziyalılarımızın təqiblərə məruz qalmasına imkan vermədi. Nəinki imkan vermədi, hətta onlara böyük cəsarətlə dövlət mükafatları təqdim etdi.

Rus dilinin hakim olduğu bir dövrdə Azərbaycan Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması da Heydər Əliyevin sayəsində mümkün olmuşdu. Ulu Öndərin öz xalqına, milli dəyərlərinə son dərəcə bağlılığının başqa bir göstəricisi isə Novruz bayramının təntənə ilə qeyd olunması ilə bağlıdır. Heydər Əliyevin dəstək verdiyi ümummilli mədəni hərəkatın tərkib hissəsi kimi Novruz bayramı ölkəmizdə daha gözəl və geniş şəkildə qeyd olunmağa başladı. Bir sözlə, Ulu Öndər sovet dövründə Azərbaycanı yüksəltməklə yanaşı, milli-mənəvi dəyərlərimizə də sahib çıxdı, onların yad təsirlər nəticəsində əriyib getməsinə, yaddaşlardan silinməsinə imkan vermədi. Heydər Əliyev sovet təbliğatının bütün baryerlərini cəsarətlə adlayaraq milli-mənəvi dəyərlərimizlə bağlı şüurlarda mövcud olan qorxunu dəf etdi, insanları manqurtlaşmağa qoymadı.

Heydər Əliyev öz xalqına o dərəcədə bağlı idi ki, müxtəlif sahələrdə azərbaycanlı kadrların sayının azlığı reallığı ilə qətiyyən barışa bilmirdi. 1970-1980-ci illərdə azərbaycanlı gənclərin təhsil üçün keçmiş ittifaqın müxtəlif nüfuzlu məktəblərinə göndərilməsi də Ulu Öndərin öz xalqına bağlılığının təcəssümü idi. Bu mənada o dövrdə SSRİ-nin 50-dən artıq şəhərinin, 135 mülki, 105 ali hərbi məktəbində 250-dən çox nadir ixtisas üzrə 15 mindən çox azərbaycanlının təhsil almasını dəyərləndirməmək mümkün deyildi.

Heydər Əliyev Moskvada SSRİ-nin ali rəhbərliyində çalışdığı illərdə də Azərbaycanı diqqət mərkəzində saxladı, bütün imkanlardan maksimum şəkildə yararlanıb ölkəmizin yüksəlişinə çalışdı. Bu diqqətin nümunəsi kimi SSRİ büdcəsindən Azərbaycana daha çox maddi vəsaitin ayrılmasına, bir sıra iqtisadi infrastrukturların Azərbaycanda yaradılmasına nail oldu.

## Tarix yaradan lider

Heydər Əliyev kimi şəxsiyyətlər harada olmasından və hansı vəzifədə çalışmasından asılı olmayaraq öz xalqının şərəfli tarixini yaradırlar. Məsələyə bu prizmadan yanaşdıqda görürük ki, Heydər Əliyev Azərbaycanın və keçmiş ittifaqın rəhbərliyində çalışdığı illərdə öz doğma vətəninə layiqincə xidmət etdiyi kimi, M.Qorbaçovun yürütdüyü siyasətə etiraz əlaməti olaraq vəzifələrindən istefa verdikdən sonra da xalqımızın haqq səsinə çevrildi, milli istiqlal mübarizəmizin önündə oldu. 1990-cı ilin 20 Yanvar faciəsinə ilk etiraz səsini ucaltmaqla, daha sonra Naxçıvandakı siyasi fəaliyyəti ilə, hələ sovet dövlətinin yaşadığı bir dövrdə üçrəngli bayrağımızı ucaltmaqla Heydər Əliyev xalqımızı öz müstəqilliyi uğrunda mübarizədə səfərbər etdi, milli azadlıq mücadiləmizə yeni nəfəs verdi.

Müstəqilliyimizin ilk illərində respublikamızda cərəyan edən proseslər ölkəni uçuruma aparmaqla yanaşı, onu da göstərirdi ki, bir-birini əvəzləyən hakimiyyətlərə rəhbərlik edənlərin heç biri ən adi liderlik və idarəçilik keyfiyyətlərinə sahib deyillər. Elə bunun nəticəsi idi ki, yenicə əldə etdiyimiz müstəqilliyimiz itirilmək, dövlətimiz isə separatizm nəticəsində parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir ərəfədə hakimiyyətdə olanlar Heydər Əliyevin təcrübəsindən yararlanmaq əvəzinə ona qarşı mübarizə aparırdılar. Lakin xalq kimin kim olduğunu yaxşı bilirdi və 1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının yaranması da insanların Ulu Öndərə olan dərin inamının göstəricisi idi. Bütün bunların davamı olaraq 1993-cü ilin keşməkeşli iyun günlərində xalqımızın olduqca müdrik və tarixi qərar qəbul edərək Heydər Əliyevi siyasi hakimiyyətə dəvət etməsi Azərbaycanda xaosdan qurtuluşa keçidin əsası oldu. Bundan sonra respublikamız tamamilə yeni tarixi dövrə qədəm qoydu.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ilk növbədə xalqımız iki böyük təhlükədən xilas oldu: Ulu Öndərin liderliyi ilə müstəqilliyimizin yenidən itirilməsinin və dövlətimizin parçalanmasının qarşısı alındı. Aradan illər ötdükcə müstəqilliyimizin ilk illərində baş vermiş həmin proseslər fonunda Heydər Əliyevin nə qədər böyük şəxsiyyət, nə qədər dahi siyasətçi olduğunu görürük. Çünki Azərbaycan dövlətçiliyinə qənim kəsilən xarici dairələrin məkrli planlarının qarşısının alınması, daxildəki separatçıların zərərsizləşdirilməsi, milli birliyin təmin edilməsi sıradan olan məsələlər deyildi və bütün bunları yalnız Heydər Əliyev kimi müdrik dühа təmin edə bilərdi.

Heydər Əliyev Azərbaycanı iqtisadi böhrandan xilas etdi, yeni ordu yaratdı, bu gün də dövlətimizin inkişafına xidmət edən mükəmməl neft strategiyasını hazırladı, hüquqi dövlət quruculuğunu həyata keçirdi, respublikamızı beynəlxalq münasibətlərin tam hüquqlu subyektinə çevirdi. Beləliklə, milli qurtuluşumuzu təmin edən Heydər Əliyev öz əməlləri ilə müasir və müstəqil Azərbaycan dövlətinin müəllifinə çevrildi.

## Prezident İlham Əliyevin rəhbərliyi ilə yazılan inkişaf salnaməsi

Bu gün Azərbaycan Heydər Əliyevin müəyyən etdiyi yolla öz gələcəyinə doğru inamla addımlayır, inkişaf göstəriciləri ilə dünyaya səs salır. Ötən 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən bütün uğurlar göstərir ki, Ulu Öndərin siyasi kursu layiqincə davam etdirilir, ideyaları həyata vəsiqə alır.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın tarixində heç vaxt olmamış inkişafa yol açıb, ölkəmizi Cənubi Qafqazın liderinə çevirib. Başqa bir qürur doğuran hal odur ki, Azərbaycan indi dünyada söz sahibidir, qlobal məsələlərdə dövlətimizin mövqeləri, baxışları ehtiramla qarşılanır. Azərbaycanın kosmik kluba daxil olması, yeni enerji dəhlizlərini reallaşdırması, nəqliyyat-logistika qovşağına çevrilməsi və digər bu kimi uğurlar İlham Əliyevin rəhbərliyi ilə yazılan inkişaf salnaməmizin səhifələridir.

Azərbaycanda Heydər Əliyevlə başlanan və ötən 20 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən, daha da zənginləşdirilən inkişaf strategiyasının əsas göstəricisi əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsidir. Xalqımızın yeganə ağrılı probleminin aradan qaldırılması göstərdi ki, Heydər Əliyev siyasi kursunun alternativi yoxdur.

Bu siyasət Prezident İlham Əliyevin uğurlu fəaliyyəti ilə, eləcə də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi layihələrlə davam etdirilir. Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ötən 19 ilə yaxın bir dövrdə öz məramı ilə, dövlət siyasətinə verdiyi dəstəklə Ulu Öndərin ideyalarının həyata vəsiqə almasına xidmət edib.

Mehriban Əliyevanın 2013-cü ildə YAP sədrinin müavini vəzifəsinə seçilməsi, 2021-ci ildə isə Yeni Azərbaycan Partiyasının sədrinin birinci müavini təyin edilməsi ümumilikdə partiya həyatına böyük töhfələr verib. Mehriban Əliyevanın həm YAP rəhbərliyində təmsil olunması, həm Birinci vitse-prezident kimi fəaliyyəti respublikamızın siyasi-ictimai həyatında qadın hərəkatının daha da canlanmasına yol açıb.

Bu gün Azərbaycanın tarixinə yeni reallıqlar hakimdir. İndi əsas hədəfimiz Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin doğma evlərinə qayıtması və Vətən müharibəsinin nəticələri fonunda milli maraqlarımızın təmin edilməsidir. Bu istiqamətlərin hər biri üzrə mənzərə isə ürəkaçırıcıdır. Görünən odur ki, Prezident İlham Əliyev müdrik və uzaqgörən siyasəti ilə qarşımızda dayanan hədəflərə doğru inamla irəliləyir, bu yolda olan maneələri qətiyyətlə dəf edir. Qazanılan hər bir uğur, hər bir qələbə göstərir ki, Heydər Əliyev siyasəti yaşayır, Ulu Öndərin ideyaları adına layiq şəkildə davam etdirilir.

*Ayaz CƏBRAYILOV,*
*YAP Kürdəmir Rayon Təşkilatının sədri*